**“Fitosanitar nəzarəti haqqında” Azərbaycan Respublikası Qanununun tətbiqi ilə bağlı əlavə tədbirlər barədə**

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

“Fitosanitar nəzarəti haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 2 avqust tarixli 441 nömrəli Fərmanının icrasını təmin etmək məqsədilə **qərara alıram:**

~~1. Müəyyən edilsin ki:~~ [1]

~~1.1. “Fitosanitar nəzarəti haqqında” Azərbaycan Respublikası Qanununun 22.3-cü və 30.4.3-cü maddələrində nəzərdə tutulmuş “müvafiq icra hakimiyyəti orqanı”nın səlahiyyətlərini Azərbaycan Respublikasının Nazirlər Kabineti həyata keçirir;~~

~~1.2. həmin Qanunun 13.8-ci maddəsinin ikinci cümləsində nəzərdə tutulmuş “müvafiq icra hakimiyyəti orqanları”nın səlahiyyətlərini Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi Azərbaycan Respublikasının *Nəqliyyat,* Rabitə və *Yüksək Texnologiyalar* Nazirliyi ilə razılaşdırmaqla həyata keçirir;~~ [2]

~~1.3. həmin Qanunun 27.1.2-ci maddəsində nəzərdə tutulmuş “müvafiq icra hakimiyyəti orqanı”nın səlahiyyətlərini Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi həyata keçirir;~~

~~1.4. həmin Qanunun 13.8-ci maddəsinin birinci cümləsində, 24.3-cü və 27.2.8-ci maddələrində nəzərdə tutulmuş “müvafiq icra hakimiyyəti orqanı”nın səlahiyyətlərini Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi yanında Dövlət Fitosanitar Nəzarəti Xidməti həyata keçirir.~~

2. Azərbaycan Respublikası Prezidentinin aşağıdakı fərmanları qüvvədən düşmüş hesab edilsin:

2.1. “Pestisidlər və aqrokimyəvi maddələr haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 1997-ci 25 iyul tarixli 618 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1997-ci il, 5, maddə 397; 2003-cü il, 10, maddələr 546, 571);

2.2. “Bitki karantini haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 1996-cı il 7 iyul tarixli 469 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1997-ci il, 2, maddə 104);

2.3. “Bitki mühafizəsi haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 1997-ci il 27 yanvar tarixli 545 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1997-ci il, 4, maddə 275; 2003-cü il, 10, maddə 548);

2.4. “Bitki mühafizəsi haqqında” Azərbaycan Respublikasının Qanununa dəyişikliklər və əlavələr edilməsi barədə” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 19 avqust tarixli 751 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998-ci il, 8, maddə 501).

3. Bu Fərman dərc edildiyi gündən qüvvəyə minir.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 6 fevral 2007-ci il
526

**İSTİFADƏ OLUNMUŞ MƏNBƏ SƏNƏDLƏRİNİN SİYAHISI**

1. 2 sentyabr 2014-cü il tarixli **247** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014-cü il, 09, maddə 1027**)
2. 7 avqust 2017-ci il tarixli **1574** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**“Xalq” qəzeti, 8 avqust 2017-ci il, 170 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, 8, maddə 1521**)
3. 27 fevral 2019-cu il tarixli **549** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**“Xalq” qəzeti, 1 mart 2019-cu il, 49 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, 2, maddə 248**)

**FƏRMANA EDİLMİŞ DƏYİŞİKLİK VƏ ƏLAVƏLƏRİN SİYAHISI**

[1] 27 fevral 2019-cu il tarixli **549** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**“Xalq” qəzeti, 1 mart 2019-cu il, 49 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, 2, maddə 248**) ilə 1-ci hissə ləğv edilmişdir.

7 avqust 2017-ci il tarixli **1574** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**“Xalq” qəzeti, 8 avqust 2017-ci il, 170 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, 8, maddə 1521**) ilə 1.2-ci bəndinə “**Rabitə**” sözündən əvvəl “**Nəqliyyat,**” sözü əlavə edilmişdir.

[2] 2 sentyabr 2014-cü il tarixli **247** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014-cü il, 09, maddə 1027**) ilə 1.2-ci bənddə “**İnformasiya Texnologiyaları**” sözləri “**Yüksək Texnologiyalar**” sözləri ilə əvəz edilmişdir.

7 avqust 2017-ci il tarixli **1574** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**“Xalq” qəzeti, 8 avqust 2017-ci il, 170 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, 8, maddə 1521**) ilə 1.2-ci bəndinə “**Rabitə**” sözündən əvvəl “**Nəqliyyat,**” sözü əlavə edilmişdir.